# Vəli Axundovu necə tanıyırıq?



Nurcan Məmmədova
ADPU
III kurs tələbəsi

(əvvəli ötən sayımızda)

> *“Daima çalışmışam ki,İnsanlar Stalin dövrünün qorxusunu unutsunlar və hər dəfə qapı döyüləndə gecə vaxtı qapılarına yaxınlaşan maşın səsi eşidəndə daha qorxmasınlar”*
>
> **Vəli Axundov**

***Birinci katib kimi, bütün səlahiyyət də onun əlindəydi, istədiyini etməkdə də kimsə ona mane ola bilməzdigDeməli, illərdir kimlərsə tərəfindən məqsədli şəkildə dövriyyəyə buraxılan məlum versiyanın heç bir***



***əsası yoxdurgÇünki özü ziyalı, alim olan, həm də hakimiyyəti dövründə məşhur 60-ci illər nəslini, Azərbaycan dissidentlərini “KQB”-dən, həbsxanalara atılmaqdan qoruyan, İstiqlal şairimiz və mücahidimiz Bəxtiyar Vahabzadəyə arxa çıxan, İsmayıl Şıxlı kimi bir Şəxsiyyətlə dostluq edən Vəli Axundovun bu müəmmalı ölümdə heç bir rolu, iştirakı, əli ola bilməzdi.***

1969-cu ilin fevralında Vəli Axundov hakimiyyətdən getmək barədə Moskvaya, Mərkəzi Komitəyə ərizə ilə müraciət etmişdi. Lakin bur ərizə gizli saxlanılırdı. Mart ayında MK-da onunla söhbət edilmiş və qalmağı məsləhət bilinmişdi. Lakin 10 il fasiləsiz respublikaya rəhbərlik etmək asan məsələ deyildi. 60-cı illərin sonlarına doğru Vəli Axundov hiss edirdi ki, Moskvanın münasibəti soyuqlaşmağa başlamışdı. Sov.İKP MK-nın sentyabr (1967-ci il) plenumu da daxil olmaqla o, yüksək partiya müzakirələrində çox aktiv iştirak edirdi, lakin son illərdə onu çıxışçıların siyahısına daxil etmirdilər. Dəyişiklik ərəfəsində o, 3 aya qədər Moskvada sanatoriya və xəstəxanada yatmışdı. Lakin bu yalnız onun müalicə ehtiyacları ilə bağlı deyildi, işdən azad edilməsinə ağlabatan bir izah üçün idi. 14 iyul plenumunda o, özü də birinci katib vəzifəsindən getməsi barədə Sovet rəhbəri Leonid Brejnevdən xahiş etdiyini deyir. Moskvada razılıq verilmişdi ki, o, Azərbaycan SSR Elmlər Akademiyasının tibb elmləri üzrə həqiqi üzvü seçilsin və respublika rəhbərliyindən gedəndən sonra Akademiyanın vitse-prezidenti vəzifəsində işləsin. Vəli Axundov Bakıya döndükdən sonra bu plan işçi məzmun almağa başladı. Həmin razılıqdan sonra 1969-cu ilin aprel ayının 29-da Akademiyanın prezidenti Rüstəm İsmayılov onun adına məktub yazıb elmi-tədqiqat işlərinin planlaşdırılması və elmi işlərin nəticələrinin istehsalatda tətbiqi məsələlərinə rəhbərlik etmək üçün Elmlər Akademiyasında əlavə vitse-prezident vəzifəsinin yaradılmasını xahiş edirdi.

Məktub gələn günün səhəri Axundov həmin məsələnin MK bürosuna çıxarılması barədə məktubun üzərinə dərkənar yazdı. Mayın 6-da Azərbaycan KP MK bürosu Akademiyada əlavə vitse-prezident vəzifəsi təsis edilməsinə razılıq verdi.Hakimiyyətinin sön günlərində o, ümumittifaq “Sovet türkologiyası” jurnalının Bakıda nəşrinə razılıq almağa nail ola bildi. Mayın 13-də Azərbaycan KP MK bürosu Sovet İttifaqının türk xalqlarının dili, ədəbiyyatı, folklorunun öyrənilməsi və təbliği ilə bağlı 12 çap vərəqi həcmində ildə 6 nömrəsi çıxacaq elmi-nəzəri jurnalın nəşri haqqında qərar qəbul etdi. Bu qərar nəticə etibarı ilə Bakını SSRİ türkologiyasının mərkəzlərindən birinə çevirdi. 1969-cu ilin yazında Vəli Axundov vəzifədən gedəcəyini bilirdi, lakin son günlərə qədər onu DTK-nın sədri Heydər Əliyevin əvəz edəcəyini təsəvvür etmirdi. Kommunist partiyasının kadr siyasətində büro üzvü, MK üzvü olmayan şəxsin birinci katib postuna seçilməsi demək olar ki, mümkünsüz görünürdü. Heydər Əli-



yev isə həmin vaxt tutduğu vəzifəyə görə Azərbaycan KP MK üzvlüyünə namizəd idi. O, bilavasitə Vəli Axundovun təqdimatı və Yuri Andropovdan xahişi nəticəsində 1967-ci ildə Azərbaycan Nazirlər Soveti yanında DTK-nın sədri təsdiq edilmişdi. Bu təsdiq məqamında Heydər Əliyevin həyat yoldaşı Zərifə Əliyeva Vəli Axundovun həyat yoldaşı Sara xanımın qonağı idi (onlar hər ikisi göz həkimi idilər və bir yerdə işləyirdilər) və həmin təsdiq xəbərini də ilk olaraq Axundov Sara xanım vasitəsi ilə onun rəfiqəsinə çatdırmışdı.Nəhayət, 14 iyul gəlib yetişdi. Həmin gün səhər Azərbaycan Elmlər Akademiyasının ümumi yığıncağı keçirildi və Vəli Axundov Akademiyanın vitse-prezidenti seçildi. Günün ikinci yarısı isə Sov.İKP MK katibi İvan Kapitonovun iştirakı ilə Azərbaycan KP MK-nın plenumu işə başladı. 14 iyul plenumunu Vəli Axundov özü açıb sözü Sov.İKP MK katibi İvan Kapitonova verdi. O, qeyd etdi ki, “Axundov respublika iqtisadiyyatının və mədəniyyətinin inkişafı, təşkilatı partiya və ideoloji işin yaxşılaşdırılması üçün az qüvvə sərf etməyib və mümkün olan hər şeyi edib. Son vaxtlar yoldaş Axundovun səhhəti pisləşdiyindən, o, özü də başa düşür ki, onun sağlıq durumu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində böyük və mürəkkəb işləri yerinə yetirmək üçün çətinlik törədir. Bununla əlaqədar Sov.İKP-yə müraciət edərək onun elmi işə keçirilməsini xahiş etmişdir. Sizə məlumdur ki, yoldaş Axundov çoxdan elmə meyl göstərir, o, tibb elmləri doktoru, professordur. Sov.İKP MK yoldaş Axundovun xahişinə qayğı ilə yanaşmışdır. Bu yaxınlarda bildiyiniz kimi o, akademik seçilmişdir, Elmlər Akademiyasının bugünkü ümumi iclasında isə o, Azərbaycan Elmlər Akademiyasının ümumi məsələlər üzrə vitseprezidenti seçilmişdir.”

***10 illik səmərəli fəaliyyətinə görə Kapitonov Vəli Axundova təşəkkür etdi. Sonra isə Moskvanın adından o, DTK-nın sədri Heydər Əliyevi birinci katib vəzifəsinə namizədliyini irəli sürdü. Kapitonovdan sonra söz alan Vəli Axundov haqqında deyilən xoş sözlərə görə Moskvanın nümayəndəsinə minnətdarlığını bildirdi və dedi ki, on il müddətinə respublikaya rəhbərlik etmək üçün mənə və bizim partiyanın Mərkəzi Komitəsinə etibar edilməsindən qürur hissi duyuram, bu mənim həyatımın ən yaxşı illəri olub, mən bununla fəxr edirəm və bu etimada görə sağ olun. MK-nın birinci katibi vəzifəsinə yeni namizədlə bağlı o, əlavə etdi ki, ‘yoldaş Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin yaxşı birinci katibi olmaq üçün bütün xüsusiyyətlərə - həm siyasi, həm işgüzar xüsusiyyətlərə malikdir. O, qısa müddətdə böyük həcmdə işi mənimsəmək üçün kifayət qədər savadlı, məlumatlı, hərtərəfli hazırlıqlıdır, o dərəcədə obyektivdir ki, bütün kadrlara eyni gözlə baxa bilər. Azərbaycanda isə kadr məsələsi, əgər keçmişi və indini nəzərə alsaq həllediciidir. Biz onu vicdanlı, ləyaqətli kommunist kimi tanıyırıq. Dzerjinski deyirdi ki, çekistin ürəyi isti, zəkası aydın və əlləri təmiz olmalıdır.”***

Heydər Əliyev plenumdakı çox qısa çıxışında bildirdi ki, bu vəzifəyə başlamaqla mən öz məsuliyyətimi başa düşürəm, mənim qarşımda hansı çətin və ağır vəzifələrin dayandığını anlayıram və sizi əmin etmək istəyirəm ki, bu böyük və yüksək etimadı doğrultmaq üçün bütün gücümü və imkanlarımı sərf edəcəyəm. 14 iyul plenumu “Azərbaycan KP MK-nın birinci katibi haqqında” məsələni müzakirə etdikdən sonra 4 bənddən ibarət qərar qəbul edildi.Orada göstərilirdi: səhhəti ilə bağlı və Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti seçilməsinə görə yoldaş Vəli Axundovun Azərbaycan KP MK-nın birinci katibi və KP MK bürosu üzvlüyündən azad edilməsi haqqında xahişi təmin edilsin; yoldaş Heydər Əliyev Azərbaycan KP MK üzvlüyünə namizədlikdən üzvlüyə keçirilsin; yoldaş Əliyev Mərkəzi Komitənin birinci katibi və Azərbaycan KP MK bürosunun üzvü seçilsin; Bu qərarın təsdiq edilməsi Sov.İKP MK-dan xahiş edilsin. Plenumun qərarlarını MK-nın ikinci katibi Sergey Kozlov imzaladı. İclasın sonunda Kozlov təklif etdi ki, Axundovun səhhətinə görə birinci katib vəzifəsindən azad edilməsi məsələsi ictimaiyyət üçün verilən rəsmi informasiyada göstərilməsin. Plenum üzvləri buna razılıq verdi. Bununla da respublikanın siyasi həyatında artıq tarixə çevrilmiş Axundov dövrü başa çatdı və Əliyev erası başlandı. Vəli Axundovun xəstəlik adı ilə respublika rəhbərliyindən azad edilməsi və DTK sədri Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirilməsi SSRİ-də mərkəzi və məhəlli siyasi dəyişikliklərə həssaslıqla yanaşan xarici radiosəslər və Azərbaycan ziyalıları tərəfindən birmənalı qarşılanmadı. İyulun 18-də “Azadlıq” radiosunun Azərbaycan xidməti bu








Axundovun nə üçün kənar edildiyini hamı məndən soruşur. Mən də səndən soruşuram. Qəzetdə göstərilən rəsmi səbəb o qədər axmaq və yersizdir ki, hamı gülür. Mən də həm gülür, həm də yanıram: - nə vaxta kimi bu cür rəsmi xəbərləri tərtib edən “başçılar” bizi, yəni sovet xalqını şüursuz və dərrakəsiz hesab edəcək və həqiqi səbəbləri gizlədəcəklər? Kimə lazımdır bu? Ah, Sabir satirası, haradasan! Nə Sabir qırmancının yeridir!... Təzə katib Əliyev kim ola? Nə isə mən onu tanımıram. Xülasə... Amandır, özündən muğayat ol!” Bu dəyişikliklə bağlı verdiyi materialda bildirirdi ki, “Vəli Axundovun birinci katib vəzifəsindən kənar edilməsinin səbəbləri hələlik bizə məlum deyil. Ancaq güman etmək olar ki, Kreml daxili məsələlərin həllində daha geniş sərbəstlik, müstəqillik əldə etməyə çalışan müttəfiq respublikalara etibar etmir. Kremlin yeni hakimləri Heydər Əliyevdən ikinci Mir Cəfər Bağırov yaratmaq istəyirlər.”

Elə həmin gün ailə üzvləri ilə birlikdə Riqa şəhəri yaxınlığındakı Yurmala kurortunda istirahət edən Əziz Şərif respublikada baş verən dəyişikliklə bağlı yaxın dostu, Azərbaycan Yazıçılar İttifaqının birinci katibi Mirzə İbrahimova məktub göndərdi. O, yazırdı: “Bir həftədir ki, sağ salamat Baltik dənizinin sahilində istirahət edirik... Sən tanıdığın adamlardan Yuri Fidler, Zorin, Druzin, Kirpotin, Arbuzov, Rojdestvenski, Fedinin qızı və nəvəsi istirahət edirlər. Dünən Fedinin qızıyla səni xatırlayırdıq. Sən necəsən, əzizim? Axı səni xəstə qoyub getdik. Bakıya necə getdin və necə gəldin? Qəzetdəki xəbəri oxuyandan sonra sənin təcili surətdə çağırılmağının (M.İbrahimov MK üzvü idi -C.H.) səbəbini anladım. Burada məktuba cavabında Mirzə İbrahimov respublikadakı dəyişiklik barədə Əziz Şərifə ətraflı məlumat yazdı və bildirdi ki, dayı (o, Əziz Şərifə dayı deyə müraciət edirdi) narahat olma, yeni rəhbər sizinkilərdəndir və çətin ki, bundan sonra bir də onlar hakimiyyəti əldən versinlər. Bir ay sonra Heydər Əliyev 50 ildir haqqında dastan qoşulan 1969-cu ilin avqust plenumunu keçirdi və orada “Leninin anadan olmasının 100 illiyinə Azərbaycanda hazırlığın vəziyyəti haqqında” geniş məruzə ilə çıxış etdi. Həmin məruzədən aydın oldu ki, respublikanı qarşıda çətin sınaq və 50-60-cı ilin milli kadrlarını ağır repressiyalar gözləyir. Vəli Axundov 1986-cı il avqustun 22-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.onun həyst yoldaşı isə özündən 5 il qabaq rəhmətə getmişdi.Lenin” ordeni,II dərəcəli Vətən Müharibəsi ordeni,”Qırmızı Ulduz” ordeni,Müxtəlif medallarlarla təltif olunmuşdur.

***21 aprel 1996-cı ildə Azərbaycanın görkəmli alimi və ictimai-siyasi xadimi, akademik Vəli Yusif oğlu Axundovun 80 illik yubileyi ilə əlaqədar qərar qəbul edilmişdir. 15 yanvar 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vəli Axundovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.***